# DAŞKƏSƏN: MÜASİRLƏŞƏN DİYAR

**Respublikanın dilbər guşələrindən olan Daşkəsən rayonunda da 2019-cu ilin sosial-iqtisadi inkişafının yekunlarına və 2020-ci ildə qarşıda duran vəzifələrə həsr olunmuş ümumrayon hesabat yığıncağı keçirildi. Tədbirdə Azərbaycan Respublikası Prezidenti Administrasiyasının məsul işçisi Arif Novruzov, Daşkəsən Rayon İcra Hakimiyyətinin başçısı Əhəd Abıyev, rayonda fəaliyyət göstərən idarə, müəssisə və təşkilatların, hüquq-mühafizə orqanlarının rəhbərləri, ictimaiyyət nümayəndələri iştirak edirdilər.**

Yığıncaq iştirakçıları ilk öncə ümummilli lider Heydər Əliyevin rayon mərkəzində ucaldılmış əzəmətli abidəsi önünə gül dəstələri qoyaraq onun əziz xatirəsini bir dəqiqəlik sükutla yad etdilər. Sonra rayon icra hakimiyyətinin inzibati binasında yığıncaq öz işinə başladı.

**Daşkəsən Rayon İcra Hakimiyyətinin başçısı Əhəd Abıyev** iştirakçıları salamlayaraq, geniş hesabat məruzəsi ilə çıxış etdi. Qeyd etdi ki, respublikamızın digər rayonlarında olduğu kimi, Daşkəsən rayonunda da 2019-cu ildə uğurlu işlər və nailiyyətlər əldə olunmuşdur.

2019-cu ildə Daşkəsən rayonunda faktiki qiymətlərlə ümumi məhsul buraxılışının həcmi 228 milyon 833 min manat olmuş, əvvəlki ilə nisbətən 8,2 %, bəzi sahələr üzrə isə xeyli artmışdır. Ümumi məhsul buraxılışında 2019-cu ildə sənaye üzrə 141 milyon 467 min manat (2018-ci illə müqayisədə 21,5% çox), nəqliyyat və anbar təsərrüfatı üzrə 3 milyon 276 min manat (2018-ci illə müqayisədə 3% çox), informasiya və rabitə üzrə 238 min manat (2018-ci illə müqayisədə 5% çox), ticarət-nəqliyyat vasitələrinin təmiri üzrə 23 milyon 395 min manat (2018-ci illə müqayisədə 2% çox) olmuşdur. Hesabat ilində rayonda ümumi məhsul buraxılışında qeyri-dövlət sektorunun xüsusi çəkisi 95 faiz təşkil etmişdir.

2019-cu il ərzində rayon ərazisində bir sıra tikinti, təmir-bərpa, yenidənqurma, abadlıq-quruculuq işləri görülmüşdür.

Azərbaycan Hökuməti ilə İslam İnkişaf Bankı tərəfindən maliyyələşən "Daşkəsən şəhərinin su və kanalizasiya sistemlərinin yenidən qurulması" layihəsinin həyata keçirilməsində son tamamlama işləri yerinə yetirilir.

2019-cu il ərzində Daşkəsən şəhərində 10 çoxmərtəbəli yaşayış binasının dam örtüyü təmir edilmiş, 3 binanın fasadı əsaslı təmir edilərək emussiya ilə rənglənmiş, 6 binanın giriş blokunun pilləkən qəfəsindəki pəncərələr metal plastik pəncərələrlə, blokların giriş qapıları isə metal qapılarla əvəz olunmuşdur.





Heydər Əliyev meydanında və Şəhidlər Xiyabanında təmir işləri aparılaraq səliqə-sahman işləri yerinə yetirilmiş, Heydər Əliyev adına bulaq təmir edilmişdir.

Şəhərin bəzi küçələrinə və çoxmənzilli yaşayış binalarının ətrafına yeni asfalt örtüyü salınmış, istinad divarlarında və səkilərdə təmir işləri aparılmışdır.

2019-cu il ərzində Daşkəsən şəhər İ.Nəsimi adına 1 saylı, N.Nərimanov adına 3 saylı, S.Vurğun adına 4 saylı və Qaraqollar kənd tam orta məktəblərində, 20 yerlik Daşkəsən qəsəbə uşaq bağçasında, Qabaqtəpə kənd xəstəxanasında və Quşçu kənd folklor evində təmir işləri aparılmışdır.

Gurbulaq, Çanaqçı və Zinzahal kəndlərində modul tipli məktəb binaları tikilərək istifadəyə verilmişdir.

Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin sifarişi əsasında Daşkəsən şəhərində, Daşkəsən qəsəbəsində, Qabaqtəpə və Dəvrallı kəndlərində Qarabağ müharibəsi əlilləri və şəhid ailələri üçün 4 fərdi yaşayış evinin və Fövqəlada Hallar Nazirliyinin xətti ilə Alunitdağ və Yuxarı Daşkəsən qəsəbələrində və Quşçu kəndində evləri qəza vəziyyətində olan vətəndaşlar üçün 3 fərdi yaşayış evinin tikintisi başa çatdırılmışdır.

Hesabat ili ərzində rayon ərazisində bir sıra mədəni-kütləvi tədbirlər keçirilmişdir. Novruz bayramı ərəfəsində Heydər Əliyev Fondunun hesabına Daşkəsən rayonu ərazisində yaşayan 318 aztəminatlı ailəyə, Qurban bayramında isə 409 ailəyə bayram sovqatları verilmişdir.

Daşkəsən şəhərinin Heydər Əliyev meydanında 19 mart 2019-cu il tarixdə qədim, milli bayramımız olan Novruz bayramı minlərlə rayon sakininin iştirakı ilə yüksək səviyyədə keçirilmiş, rayon ərazisində olan "N" saylı hərbi hissənin əsgərlərinə bayram sovqatları verilmişdir.

2019-cu ilin məhsulu üçün 320 hektar sahədə buğda əkilmiş 721 ton məhsul, 110 hektar sahədə isə arpa əkilərək 154 ton məhsul götürülmüşdür.

Heyvanların cins tərkibinin yaxşılaşdırılması məqsədilə 2019-cu il ərzində 378 baş iribuynuzlu heyvan süni mayalandırılmışdır. Mayalandırılmış heyvanlardan 196 baş bala alınmışdır.

Əhalinin elektrik enerjisi, qaz və içməli su ilə təchizatı vəziyyətinin yaxşılaşdırılması məqsədilə bir sıra təmir-bərpa, yenidənqurma işləri həyata keçirilmişdir.

Rayonun orta məktəb məzunlarından 89 nəfəri respublikanın ali və orta ixtisas məktəblərinə qəbul olunmaq üçün ərizə vermişdi. Onlardan 43 nəfəri ölkənin müxtəlif nüfuzlu ali, 39 nəfəri isə orta ixtisas məktəblərinə qəbul olunmuşlar. Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin tapşırığı ilə respublikamızın şəhər və rayonlarının ümumtəhsil məktəblərinin IX-XI sinif şagirdləri üçün "Ölkəmizi tanıyaq" devizi ilə keçirilən növbəti maarifləndirici tur-aksiyalara start verilmişdir.

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin tapşırığı ilə 2019-cu ilin fevral ayının 11-dən 15 may 2019-cu il tarixə kimi ölkədə əhalinin sağlamlığını təmin etmək üçün tibbi müayinə günü təşkil edilmişdir.

Hesabat ilində rayon üzrə idman yarışları və digər sahələrdə 7443 gəncin iştirak etdiyi 62 tədbir həyata keçirilmişdir. 2019-cu ildə rayonumuzun idmançıları 5 qızıl, 6 gümüş, 11 bürünc medal olmaqla cəmi 22 medal qazanmışlar.

2019-cu il ərzində 44 yaşayış məntəqəsində səyyar qəbul keçirilmiş, 2801 nəfər iştirak etmiş, 208 müraciət olunmuşdur. Səyyar qəbullarda qaldırılan məsələlərin həll edilməsi üçün aidiyyəti üzrə müvafiq tapşırıq və göstərişlər verilmişdir.

Çıxışının sonunda rayon başçısı Əhəd Abıyev rayona göstərilən sonsuz diqqət və qayğıya görə ölkə Prezidenti cənab İlham Əliyevə qədirbilən daşkəsənlilər adından dərin minnətdarlığını bildirmişdir.

Azərbaycan Respublikası Prezidenti Administrasiyasının məsul işçisi Arif Novruzov çıxış edərək, Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin rəhbərliyi altında respublikanın sosial-iqtisadi inkişafı sahəsində əldə olunmuş nailiyyətlərdən möhtəşəm layihələrin icrasından, qarşıdakı perspektivlərdən ətraflı söhbət açdı. Məruzə ətrafında Daşkəsən rayonu üzrə Maliyyə İdarəsinin rəisi Natiq Zeynalov, DSMF-nin rayon şöbəsinin müdiri Malik Şükürov, Daşkəsən Rayon Gənclər və İdman İdarəsinin rəisi Samir Həsənov çıxış edərək, daşkəsənlilərə göstərilən diqqət və qayğıya görə möhtərəm Prezidentimiz cənab İlham Əliyevə minnətdarlıqlarını bildiriblər, qarşıda duran vəzifələrin icrasından danışıblar.

Hesabat yığıncağının iştirakçıları adından ölkə Prezidenti cənab İlham Əliyevə müraciət qəbul edilib.

**Zabit XƏLİLOV,**
**"Respublika".**

Respublika.- 2020.- 3 mart.- S.6.